# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

QƏZET 1991-ci İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 07 APREL 2022-ci il / № 12 (1279)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU




## Prezident İlham Əliyev İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, turizm naziri Yoel Razvozovu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğuladı. Prezident İlham Əliyev həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirdi.

İqtisadi sferada əlaqələrə toxunan dövlətimizin başçısı energetika sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd etdi, Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerjiyə artıq fəal şəkildə sərmayə qoyulduğunu bildirərək, İsrail şirkətlərinin də ölkəmizdə bu sahəyə maraq göstərdiyini qeyd etdi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

**Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə etdi.**

Dövlətimizin başçısı hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev əlaqələrimizin inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diasporlarımızın rolundan danışdı, xalqlarımızın nümayəndələrinin əsrlər boyu birgə dostluq şəraitində yaşadıqlarını vurğuladı, yəhudi icmasının üzvlərinin birinci və ikinci Ermənistan-Azərbaycan müharibələrində iştirak etmələrinin və şücaət göstərməsinin ölkəmizdə ehtiramla qeyd olunduğunu bildirdi.

**İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozov ilk növbədə Ramazan ayının başlanması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Qonaq Azərbaycanın gözəl bir ölkə olduğunu vurğulayaraq uzun illər xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma əlaqələrinin mövcud olduğunu məmnunluqla bildirdi. O, yəhudi icmasının ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini dedi və bu baxımdan Azərbaycanın nümunəvi ölkə olduğunu vurğuladı.**

"İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Biz ölkənizin ərazi bütövlüyünün bərpa olunmasını alqışlayırıq. Bu, çox önəmlidir", - deyən qonaq Ermənistanla Azərbaycan arasında danışıqların uğurlu olacağına və bunun da regionda sabitliyin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

**Yoel Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, ağıllı şəhər, energetika, su təchizatı və digər sahələrdə iştirak etməkdə də maraqlı olduqlarını dedi.**

Azərbaycanın biznes üçün çox yaxşı imicə malik olduğunu vurğulayan İsrailin turizm naziri ölkəmizdə biznes fəaliyyəti üçün təhlükəsiz və təminatlı şəraitin mövcudluğunun İsrail şirkətləri üçün cəlbedici olduğunu qeyd etdi.

**Yoel Razvozov bu il Azərbaycanla İsrail arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin də qeyd olunduğunu vurğuladı.**

## Prezident İlham Əliyev Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə aprelin 6-da Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər edib.**



## "ÇALIŞMAQ LAZIMDIR Kİ, İLK TƏŞKİLATLARDA NÜFUZU OLAN ŞƏXSLƏR TƏMSİL EDİLSİNLƏR"

**Aprelin 1-də Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin (RK) Rəyasət Heyətinin iclası keçirilib.**

**Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev iclası açaraq Rəyasət heyəti üzvlərini gündəlikdə olan məsələlərlə tanış edib. Bildirib ki, gündəliyə "ATİAHİ Respublika Komitəsinin 2021-ci ilə dair ümumi illik statistik hesabatı barədə", "2021-ci ildə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsində və üzv təşkilatlarda vətəndaşların qəbulu, ərizə və şikayətlərinə baxılmasının vəziyyəti barədə", "2021-ci ilin yekunlarına görə ATİAHİ Respublika Komitəsinin büdcəsinin yerinə yetirilməsi barədə", "2021-ci ildə həmkarlar ittifaqı üzvlərinin müalicə və istirahətinin təşkili ilə bağlı görülmüş işlər barədə" məsələlər daxildir.**

Birinci məsələ ilə bağlı Respublika Komitəsinin Təşkilat şöbəsinin müdiri Emil Rüstəmov məruzə edərək ötən ilin statistik göstəriciləri ilə bağlı məlumat verib. Qeyd edib ki, 2022-ci il yanvarın 1-nə olan məlumata əsasən, ATİAHİ-nin 136 rayon, şəhər və rayon hüquqlu komitəsində birləşən 5739 ilk həmkarlar ittifaqı təşkilatı və 401 197 nəfər ittifaq üzvü var: "Əvvəlki ilin müvafiq rəqəmləri ilə müqayisə etdikdə, 2021-ci ildə ittifaq üzvlərinin sayında çoxalma baş verib. Belə ki, 2019-cu ildə ittifaq üzvlərinin sayı 389 422 nəfər olub. 2021-ci ildə Respublika Komitəsinin xidmətində olan 5 725 ilk təşkilatda həmkarlar ittifaqı komitəsi ilə müdiriyyət arasında kollektiv müqavilə bağlanıb. İttifaq üzvlərinin əmək, sosial, iqtisadi hüquqları və qanuni mənafelərinin müdafiə olunmasına xidmət edən kollektiv müqavilələr 302 186 nəfər ittifaq üzvünü əhatə edib".

DAVAMI SƏHİFƏ: 2-DƏ

### Azərbaycana qovuşan Suqovuşan yenidən cənnətməkana çevriləcək



BAX SƏHİFƏ: 3

### Qarşılıqlı fəaliyyət daha da gücləndiriləcək

BAX SƏHİFƏ: 2

### "Sudan səmərəli istifadənin metodları" layihəsinin icrasına başlanıb

BAX SƏHİFƏ: 4

### Postpandemiya dövründə həmkarlar ittifaqlarının vəzifələri

BAX SƏHİFƏ: 2

### Xeyirxah aksiyalar

BAX SƏHİFƏ: 2

### "Zenit" İdman Cəmiyyətinin daha bir uğuru

BAX SƏHİFƏ: 4

### Gender bərabərliyi təşkilatımızın fəaliyyətində prioritetdir



BAX SƏHİFƏ: 3

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 4

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

### Beynəlxalq

*Tam şəffaflıq və mövcud məlumatların mühafizəsi gözlənilməlidir*

BAX SƏHİFƏ: 4

### İnsanlıq əleyhinə törədilmiş dəhşətli cinayət

BAX SƏHİFƏ: 3

### Uzun illər təhrif olunmuş faktlar və həqiqətlər ortaya çıxarılıb

BAX SƏHİFƏ: 3

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ



# "ÇALIŞMAQ LAZIMDIR Kİ, İLK TƏŞKİLATLARDA NÜFUZU OLAN ŞƏXSLƏR TƏMSİL EDİLSİNLƏR"

əvvəli səhifə 1-də

**Gündəliyin ikinci məsələsi ilə bağlı ATİAHİ Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə çıxış edib. O deyib ki, 2021-ci ildə Respublika Komitəsinə və Respublika Komitəsinin xidmətində olan üzv təşkilatlara ümumilikdə 62171 ərizə və şikayət daxil olub, onlardan 60278-i müsbət cavablandırılıb. Belə ki, əmək hüquqlarının müdafiəsi ilə bağlı daxil olmuş 424 müraciətdən 323-ü, həmkarlar ittifaqı orqanlarının işi ilə bağlı daxil olan 209 ərizədən 180-i müsbət həll edilib. Bu müraciətlərin 87-si işə bərpa ilə bağlı olub. Həmçinin 2021-ci ildə ATİAHİ Respublika Komitəsi və onun xidmətinə daxil olan şəhər, rayon və rayon hüquqlu həmkarlar ittifaqı komitələri 52 593 nəfər ittifaq üzvünə maddi yardım göstərib. Ötən il ATİAHİ Respublika Komitəsinin müdaxiləsi nəticəsində 2 nəfər öz əvvəlki işinə bərpa edilib. Bununla yanaşı, Respublika Komitəsinin xidmətinə daxil olan şəhər, rayon və rayon hüquqlu həmkarlar ittifaqı komitələri də 40 nəfərin öz işinə bərpa olunmasına köməklik göstərib.**

ATİAHİ Respublika Komitəsinin katibi, Maliyyə şöbəsinin müdiri **Mübariz Eyvazov** isə 2021-ci il üzrə büdcə göstəricilərinin yerinə yetirilməsi, həmçinin həmkarlar ittifaqı üzvlərinin müalicə və istirahətinin təmin edilməsi ilə bağlı ötən il həyata keçirilmiş tədbirlər barədə məlumat verib.

**İclasın sonunda Respublika Komitəsinin sədri S.Möhbalıyev yekun söz söyləyib, tövsiyələrini çatdırıb. Qeyd edib ki, rayon, şəhər və şəhər hüquqlu həmkarlar ittifaqı komitələrinin sədrləri, eləcə də ilk təşkilat sədrləri yerlərdə həmkarlar ittifaqı komitələrinin nüfuzunun artırılması ilə bağlı aparılan işi daha da təkmilləşdirməlidirlər. Kollektiv müqavilələrin müddəalarına əməl edilməsi xüsusi nəzarətdə saxlanılmalıdır: "Çalışmaq lazımdır ki, ilk təşkilatlarda nüfuzu olan şəxslər təmsil edilsinlər. Əgər ilk təşkilatların sədrləri nüfuzlu şəxslər olarsa, o zaman ümumilikdə həmkarlar ittifaqı təşkilatlarının nüfuzu da yüksək olacaq".**

Sədr bildirib ki, həmkarlar ittifaqı təşkilatları daxil olan hər bir ərizəyə diqqətlə yanaşmalı, həmkarlar ittifaqı üzvlərini narahat edən məsələlərin həll olunmasına çalışmalıdır: "Hər bir ərizə xüsusi yanaşma tələb edir. Bu baxımdan hər bir ərizə araşdırılmalıdır, problemi olan insanlara diqqət göstərilməlidir. Rayon komitəsi sədrləri müraciət edən şəxslərə öz köməkliyini göstərməlidir".

S.Möhbalıyev deyib ki, biz, həmkarlar ittifaqı təşkilatları olaraq, istər pandemiya, istərsə də Vətən müharibəsi və ondan sonrakı dövrlərdə həssas əhali qruplarına müxtəlif yardımlar göstərmişik. Həm bayram, həm də əlamətdar günlərdə AHİK tərəfindən ərzaq dolu maşın karvanları respublikamızın bütün bölgələrinə yola salınıb.

**Bundan başqa, şəhid ailələrinin, onların övladlarının problemləri ilə daim maraqlanır, demək olar ki, imkanımız daxilində onlara hər cür dəstəyi veririk. Dövlətimiz tərəfindən onların hərtərəfli himayə olunmasına baxmayaraq, üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq. Həm bayram günlərində, həm də onlar üçün əziz olan günlərdə şəhid ailələrinə baş çəkilir, hədiyyələr təqdim olunur, maddi yardımlar göstərilir. Hər birinizə məlumdur ki, hər il 100 mindən artıq insan həmkarlar ittifaqının verdiyi yollayışlarla sanatoriya və istirahət mərkəzlərində dincəlir, müalicə alır. Həmkarlar ittifaqları üzvləri ilə yanaşı, Vətən müharibəsi iştirakçıları, qazilər və şəhid ailəsi üzvləri sağlamlıqlarının bərpa olunması məqsədilə, istəklərinə uyğun olaraq, sanatoriya-kurort yollayışları ilə təmin olunurlar.**

Biz indiyə kimi 172 şəhidin 286 övladını himayəyə götürmüşük. Hər ay onların hesabına pul köçürülür. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması üçün mübarizəyə atılaraq şəhid olan igidlərimizin, qazilərimizin ailələrinə hər zaman diqqət və qayğı göstərməliyik.

**"YAŞAT" Fonduna və Qarabağ Dirçəliş Fonduna müxtəlif vaxtlarda vəsaitlər köçürülüb və bu istiqamətdə humanist layihələrimizi bundan sonra da davam etdirəcəyik.**

**Azər MUSTAFAYEV**

# *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə*

**Hörmətli Səttar müəllim!**

**Sizi və rəhbərlik etdiyiniz kollektivi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayırıq.**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Novruz bayramı ilə əlaqədar aztəminatlı ailələrə ərzaq sovqatlarının göndərilməsi barədə 09.03.2022-ci il tarixli, 43/14 nömrəli məktubunuzun icrası ilə bağlı bildiririk ki, göndərilmiş ərzaq sovqatları aidiyyətli nümayəndələrin iştirakı ilə Göygöl rayonu üzrə 50 aztəminatlı ailəyə təqdim olundu. Aztəminatlı ailələrə göstərdiyiniz diqqət və qayğıya görə Sizə öz dərin minnətdarlığımızı bildiririk.

**Turani ƏLİYEV,**
*Göygöl Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərinin müvəqqəti icraçısı, başçının birinci müavini*

---

**Hörmətli Səttar müəllim!**

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən əhalinin rifah halının yaxşılaşdırılması, həssas təbəqədən olan insanlara qayğı daim diqqətdə saxlanılır və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri də, dövlətimiz tərəfindən bayramlarda və əlamətdar günlərdə şəhid ailələrinə, müharibə əlillərinə, aztəminatlı və digər həssas qruplardan olan ailələrə hədiyyə, sovqat və yardımların verilməsidir ki, bu da artıq ənənə halını almışdır.**

Sizin rəhbərliyinizlə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da bu tədbirlərdə fəal iştirak edir. Samux rayonundan olan şəhid ailələrini, müharibə əlillərini, aztəminatlı və digər həssas qruplardan olan ailələri də daim diqqətdə saxlayır.

**Bu diqqət və qayğıya görə Sizə dərin təşəkkürümüzü bildirirəm.**

**Alı QOCAYEV,**
*Samux Rayon İcra Hakimiyyətinin başçısı*

# XEYİRXAH AKSİYALAR



**Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları müqəddəs Ramazan ayında, "Sosial məsuliyyət" tədbirləri çərçivəsində, uzun müddət sərnişin nəqliyyatında çalışmış, qayğıya ehtiyacı olan və tənha yaşayan ahıl nəqliyyatçı Zərifə Babayeva ilə görüşüb. Ona maddi yardım göstərilib.**

***

**Böyük zəfərimizin başlanğıcı olan Aprel döyüşlərindən 6 il ötür. Xocavənd Poçt Filialının əməkdaşları Aprel döyüşlərinin 6-cı ildönümü ilə əlaqədar Şəhidlər Xiyabanını ziyarət ediblər.**



# *Postpandemiya dövründə həmkarlar ittifaqlarının vəzifələri*

**Martın 30-da Ümum Həmkarlar İttifaqları Konfederasiyası (ÜHİK) onlayn formatda COVID-19 pandemiyası dövründə əməyin mühafizəsi problemlərinə, eləcə də "Sıfır xəsarət" konsepsiyasının tətbiqi təcrübəsinə həsr olunmuş dəyirmi masa keçirib.**

AHİK-in sədr müavini bildirmişdir ki, artıq pandemiya hissediləcək qədər zəifləyib. Ümid var ki, yaxın vaxtlarda birdəfəlik yox olacaq.



Tədbirə ÜHİK-in üzv təşkilatlarından 25 nəfər məsul şəxs və mütəxəssis dəvət olunmuşdu.

**ÜHİK-in Əməyin mühafizəsi, ekologiya, işçilərin sağlamlığı və sosial təminatı üzrə komissiyasının həmsədri, "Elektroprofsoyuz" Beynəlxalq Həmkarlar İttifaqları Birliyinin sədri Vasiliy Bondarevin moderatorluğu ilə baş tutan tədbirdə Azərbaycan həmkarlar ittifaqını AHİK-in sədr müavini Cavanşir Alxasov, şöbə müdirinin müavini Əli Mədətov, etimadlı həkimi Hacı Rəsulov, Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Əməyin mühafizəsi şöbəsinin müdiri, baş texniki müfəttişi İsrafil Əliyev və Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin şöbə müdiri Anar Tağıyev təmsil etmişlər.**

Tədbirdə ÜHİK-in Baş katibinin müavini V.Yuriyevin məruzəsi dinlənildi. Sonra iştirakçılara söz verildi. AHİK-in sədr müavini C.Alxasov çıxış edərək əməyin mühafizəsi sahəsində mövcud vəziyyətin qısa mənzərəsini diqqətə çatdırdı. Dedi ki, son iki ildə dünya pandemiyanın yaratdığı qlobal problemlərlə üz-üzədir. Pandemiya dünya iqtisadiyyatını qeyri-sabitlik və krizis həddinə çatdırıb. Bir çox sahələrdə əməyin təhlükəsizliyi, mühafizəsi, işçilərin sağlamlığına diqqət ikinci plana keçib.

**Həmkarlar ittifaqı təşkilatı istər beynəlxalq, istərsə də yerli səviyyələrdə pandemiyanın dayandırılması, ən azı fəsadlarının azaldılması uğrunda tərəfdaşları ilə birlikdə mübarizə aparıb. Eyni zamanda tərəfdaşlarının qarşısına tələblərini də qoyub: hər bir işçinin əməyinin, sağlamlığının mühafizəsi unudulmamalıdır. Heç kim COVID-19-dan ölməməli və ya qazanc naminə xəsarət almamalıdır.**

Dünya iqtisadiyyatının, o cümlədən həmkarlar ittifaqının indi qarşısında daha ciddi və məsuliyyətli vəzifələr durur: postpandemiya dövründə itirilənlərin bərpası. O, bu istiqamətdə Azərbaycan dövlətinin, Azərbaycan həmkarlar ittifaqlarının həyata keçirdiyi tədbirlərlə dəyirmi masa iştirakçılarını tanış edib.

Azərbaycan Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Əməyin mühafizəsi şöbəsinin müdiri, baş texniki müfəttişi İsrafil Əliyev isə sahə həmkarlar ittifaqının gördüyü işlərdən danışdı. Dedi ki, COVID-19-un ilk günlərindən çox sayda qabaqlayıcı addımlar atıldı. Bütün müəssisələrdə testlər təşkil olundu. Testləri müsbət çıxan işçilər kollektivlərdən təcrid olundu. Dənizdə, mədənlərdə vaxt rejimində işləyən neftçilərə xüsusən ciddi nəzarət edilir. Onlar işə çıxmazdan əvvəl 5-7 gün ərzində, bütün şərait yaradılmış, otellərdə preventiv şəkildə izolyasiya edilir, hər birindən testlər alınır və yalnız bundan sonra növbəyə buraxılırlar. Bununla da xəstəliyin insanların daha çox toplandığı və sıx təmasda olduğu yerlərdə yayılmasına yol verilmir. Məqsədyönlü işin aparılması pandemiya dövründə vəziyyətə nəzarət etməyə imkan verir.

**Tədbirdə Rusiya, Belarus, Özbəkistan və sair ölkələrin həmkarlar ittifaqı mərkəzlərinin nümayəndələri də çıxış etdilər. Öz ölkələrində COVID-19-un yaratdığı problemlərdən və görülən işlərdən söz açdılar.**

# Qarşılıqlı fəaliyyət *daha da gücləndiriləcək*



**Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunda həmkarlar ittifaqı əməkdaşları ilə görüş keçirilib. Kənd Təsərrüfatı Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə baş tutan tədbirdə institutun direktoru Elmar Allahverdiyev giriş sözü ilə çıxış edib. Əvvəlcə görüş iştirakçılarına institutun son bir ildə gördüyü işlərdən, elmi nəticələrdən və əməkdaşların sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, uğurların əldə olunmasında həmkarlar ittifaqı ilə əməkdaşlığın böyük təsiri olub. Təcrübə göstərir ki, əməkdaşlığı davam etdirmək, qarşılıqlı fəaliyyəti gücləndirmək olduqca vacibdir.**

Görüşdə bildirildi ki, institutda uzun illər çalışmış Mafizə İmaməliyeva təqaüdə yola salınması ilə bağlı müraciət edib. Onun müraciətinə həm institutun rəhbərliyi, həm də həmkarlar ittifaqı komitəsi hörmətlə yanaşıb.

**Kənd Təsərrüfatı Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov Mafizə xanıma institutun uğurlarında göstərdiyi xidmətə və həmkarlar ittifaqı işində fəal iştirakına görə təşəkkürünü bildirib. O, M.İmaməliyevaya Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin Fəxri Fərmanını təqdim edib.**

# Azərbaycana qovuşan Suqovuşan yenidən cənnətməkana çevriləcək



**2022-ci ilin ilk 2 ayında ölkəmizə 138 ölkədən 150,4 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə çox turist gəlib. Qeyd edək ki, pandemiyadan əvvəl, 2019-cu ildə ölkəyə gələn turistlərin sayı 3.2 milyon nəfərədək yüksəlmişdi. Lakin 2020-ci ildə Vətən müharibəsi və pandemiyanın təsiri ilə bu rəqəm 400 faiz azalıb 795 min oldu. Mütəxəssislərin fikrincə isə, 2022-ci ildən başlayaraq ölkəyə gələn turistlərin sayı ilbəil artacaq. Buna əsaslı səbələrdən biri də gözəl təbiətli, tarixi abidələrimizlə zəngin olan işğaldan azad olunan ərazilərimizdir. Çünki bu ərazilərin yay, qış tarixi, dini, mədəni, həmçinin müalicəvi turizm potensialı böyükdür. Hesablamalara görə, bu torpaqlarda bərpa-quruculuq işlərindən sonra ölkəyə gələn turistlərin sayının qısa zamanda 5 milyon nəfərədək yüksələcəyi gözlənilir.**

Turizmin inkişafı ilə bağlı artıq ölkə rəhbərliyi xüsusi göstərişlər verib. Belə ki, Novruz bayramında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulub. Artıq bir sıra işlərin icrasına başlanılıb.

**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini, Tərtər rayonundan millət vəkili Sahib Alıyev dedi ki, Prezident İlham Əliyevin Tərtərin Suqovuşan qəsəbəsinə səfəri onu göstərir ki, yaxın gələcəkdə turistlərin ən çox üz tutacağı yerlərdən biri də bu ünvan olacaq. Hesab edirəm ki, Suqovuşana təkcə yerli yox, böyük sayda əcnəbi turistlərin də gəlmə ehtimalı çox yüksəkdir. Ona görə ki, dövlət başçımızın tapşırığına əsasən, çəkilən Talış-Tapqaraqoyunlu-Qaşaltı yolu Suqovuşanı Naftalanla birləşdirəcək. Bu isə o deməkdir ki, Naftalan sanatoriyalarında müalicə alanlar üçün, maksimum yarım saat ərzində, Suqovuşana gəlmək imkanı yaranır. Bir sözlə, regionda sağlamlığın bərpası ilə istirahət turizminin bir araya gətirildiyindən hər ikisinin cəlbediciliyi yüksələcək. Həmçinin Suqovuşan turizm kompleksinin varlığı Naftalana gələnlərin sayını daha da artıracaq.**

Millət vəkili bildirdi ki, eyni zamanda Tərtər rayonu da ölkənin turizm mərkəzlərindən birinə çevrilə bilər. Ən azından dövlətimiz bunun üçün nə gərəkdirsə edir. İnanmaq istərdim ki, xidmət sektorunda çalışanlarımız da bu fürsəti düzgün dəyərləndirəcəklər. Yüksək xidmət mədəniyyətinin, ədalətli qiymət siyasətinin və dürüst davranışın turistlər üçün gözəl təbiət, çağdaş infrastrukturdan heç də az əhəmiyyət daşımadığını unutmayacaqlar.

"Azərbaycanın hər qarışı, tarixi mədəniyyət ocaqları, ecazkar təbiəti, hər bölgəsinin gözoxşayan mənzərəsi və digər təbii sərvətləri ölkəyə gələn turistlərin yaddaşında ömürlük iz buraxacaq. Suqovşan böyük turizm potensialı baxımından fərqlənən bölgələrimizdəndir. Su anbarı ətrafında müxtəlif turizm zonalarının yaradılması planlaşdırılır. İlkin olaraq istirahət parkının yaradılması nəzərdə tutulub. Həmin istirahət parkı 5 hektarlıq ərazini əhatə edəcək".

**Bunu Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin Regional turizmin inkişafı sektorunun müdiri Elgün Cavadov dedi. Bildirdi ki, burada ilkin olaraq Turizm İnformasiya Mərkəzi yaradılacaq. Suqovuşan Turizm Kompleksində işlər bu ilin sonunadək başa çatdırılacaq. Artıq növbəti mövsümdən burada turistlərə xidmət göstəriləcək. Görülən işlər ondan xəbər verir ki, Suqovuşana həyat yenidən qayıdacaq və Qarabağ bölgəsi tezliklə Azərbaycanın turizm mərkəzlərindən birinə çevriləcək.**

*Əsli TELMANQIZI*

# İnsanlıq əleyhinə törədilmiş dəhşətli cinayət



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Azad Həmkarlar İttifaqı və ilk təşkilatlarında 31 Mart-Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbirlər keçirildi. Öncə 31 Mart Soyqırımı qurbanlarının, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.**

Azad Həmkarlar İttifaqının sədri, professor Habil Qurbanov çıxış edərək, bu qanlı tarix haqqında ətraflı məlumat verdi. Qeyd etdi ki, mart qırğını öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də insanlıq əleyhinə törədilmiş dəhşətli cinayətlərdən və qanlı faciələrdən biridir. Tarixi şərait nəticəsində əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtdılar.

Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov məruzə oxudu. Məruzədə erməni vandalizmini ifşa edən tutarlı faktlara istinad olundu. Dedi ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

**Prezident İlham Əliyevin 2018-ci il yanvarın 28-də imzaladığı Sərəncamla azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində qeyd olunub.**

# Uzun illər təhrif olunmuş faktlar və həqiqətlər ortaya çıxarılıb




**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününün 104-cü ilinə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə Dövlət Himni səsləndirilib. Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Anım tədbirini giriş sözü ilə Akademiyanın rektoru, professor Hüseyn Qaraşov açıb. Rektor bildirib ki, xalqımızın tarixində qəhrəmanlıq səhifələri ilə yanaşı, acı və kədərli məqamlar da vardır. 1918-ci ilin mart - aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə ermənilər tərəfindən törədilmiş qətl və qırğınlar tariximizə qara hərflərlə yazılmışdır.

**H. Qaraşov qeyd edib ki, 1918-ci ilin soyqırımı faktları ilə bağlı həqiqətlər uzun illər saxtalaşdırılıb və dünya ictimaiyyətindən gizlədilib. Müstəqilliyimizin bərpasının ilk illərində - mart soyqırımının 80-ci ildönümü ərəfəsində ümummilli lider Heydər Əliyevin imzaladığı fərmandan sonra dövrün obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilib, uzun illər təhrif olunmuş faktlar və həqiqətlər ortaya çıxarılıb, özünün əsl qiymətini alıb.**

Daha sonra prorektor, professor Fərhad Möhbalıyev 31 martı Azərbaycan tarixinin ən qanlı səhifəsi adlandırıb. Bildirib ki, soyqırımı ermənilər tərəfindən azərbaycanlılara qarşı hələ də davam etdirilir. Dünyada baş vermiş soyqırımlara qarşı beynəlxalq ictimaiyyət tərəfindən ikili standartların tətbiq olunduğunu xüsusi vurğulayaraq bunun yolverilməz olduğunu söylədi.

**Tarix üzrə fəlsəfə doktorları Vahid İsmayılov və İman Abduyev 1918-ci il mart hadisələrinin tarixi kökləri, xarakteri və miqyası haqqında məlumat verib. Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə təbliği istiqamətində gənclərin rolundan danışıb. Hər iki çıxışda qeyd olunub ki, anım tədbirləri tariximizdə baş vermiş faciəli hadisələrə milli yaddaşın təzahürü olaraq dəyərləndirilməlidir.**

**Tədbir videoçarxın nümayişi ilə yekunlaşıb.**

# Gender bərabərliyi təşkilatımızın fəaliyyətində prioritetdir

**Müasir dövrdə gender balansı problemi və qadın məsələləri bütün dünyanın diqqət mərkəzindədir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi və İnsan hüquqları haqqında Ümumdünya Bəyannaməsi, eləcə də digər beynəlxalq sənədlər cinslər arasındakı hüquq bərabərliyini günün əsas tələbi kimi təsbit edir. Eyni zamanda beynəlxalq hüquqa əsasən, qadınlar xüsusi subyekt kimi dəyərləndirilir. Onlara hüquqlarının həyata keçirilməsi üçün geniş təminatlar müəyyən olunur.**



Qlobal təcrübə onu da göstərir ki, beynəlxalq ictimaiyyətin COVID-19 pandemiyasının fəsadlarını aradan qaldırmağa çalışdığı hazırkı dövrdə etibarlı, vaxtında təqdim olunan və dezaqreqasiya olunmuş gender məlumatları çox vacibdir. Mən bu yazımda oxucuları, bütün təsirləri nəzərə alınaraq, qadın və kişilərin sosial-iqtisadi vəziyyətinə dair həmkarlar ittifaqları strukturlarında gender qiymətləndirilməsinin nəticələri ilə tanış etmək istəyirəm.

**Öncə deyim ki, AHİK-in gender siyasətinin əsasında statistik göstəricilərin sosial-iqtisadi, hüquqi, mədəni və psixoloji aspektlərin təhlili durur. Üzv təşkilatlardan prosesə dair daxil olan statistik məlumatlar ümumiləşdirilir, cinslər arasındakı fərqlərin və təcrübələrin təsiri öyrənilir. Bu amillərin gender əsaslı ayrı-seçkiliklə necə əlaqəli olduğunu və insanın özünü inkişaf etdirməsi yolunda hansı maneələr yarada biləcəyini təhlil edir, qadınların iqtisadi imkanlara çıxışının yaxşılaşdırılması məsələsinə aydınlıq gətirir.**

AHİK-in müvafiq şöbələrinin araşdırmalarına görə, 2022-ci il yanvarın 1-nə qədər həmkarlar ittifaqları sıralarında qadınların sayı 52,3 faiz təşkil edib. Həmkarlar ittifaqlarının seçkili orqanlarında (Məclis, İcraiyyə Komitəsi, Rəyasət Heyəti, Təftiş Komissiyası və s.) qadınların sayı 1,9 faiz artaraq 47,1 faiz olub.

Bütün səviyyəli rəhbər vəzifələrdə **(pullu aparatda və ictimai əsaslarla)** çalışanlar arasında qadınların sayı 3 faiz artaraq 42,8 faizə çatmışdır.

**Hazırda həmkarlar ittifaqı strukturlarında gender və qadın problemləri ilə məşğul olan 2454 komissiya var. Onların da tərkibində ictimai əsaslarla 9825 nəfər qadın və kişi fəaliyyət göstərir. Azsaylı təşkilatlarda isə bu məsələlərə cavabdeh olan 799 nəfər məsul şəxs təyin edilib.**

Hesabat ilində yerlərdə gender və qadın problemlərinə həsr olunmuş 374 seminar, dəyirmi masa və d. tədbirlər keçirilmişdir. 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə "Qadın dünyanın tacıdır", 21 Noyabr - Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü ilə əlaqədar "Qadın zorakılığına yox deyək!", 15 May - Beynəlxalq Ailə Gününə həsr olunmuş "Sağlam ailə, sağlam gələcəyin təminatıdır", 10 Dekabr - Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi Günü ərəfəsində "Müəssisə, idarə və təşkilatlarda gender bərabərliyinin gözlənilməsi", "Azərbaycan həmkarlar ittifaqının gender siyasəti", "Əmək və məşğulluq sahəsində ayrı - seçkilik yolverilməzdir!", "Əmək müəssisələrində qadınlara verilən hüquqlar" və başqa mövzular müzakirə edilib. Təşkil olunan bütün tədbirlərdə, o cümlədən 11 beynəlxalq təşkilatın vebinarlarında 7000 nəfərə yaxın həmkarlar ittifaqı üzvü iştirak edib.

**AHİK-in nəzdində fəaliyyət göstərən Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəzin (GBQPM) təşkil etdiyi və keçirdiyi tədbirlərdə də qadın - kişi hüquq bərabərliyinin, milli - mənəvi dəyərlərin qorunub saxlanması ideyası ön plana çəkilmiş, sahə Hİ respublika komitələrinin müvafiq qurumları ilə əməkdaşlıq işləri genişlənmişdir. Hesabat dövründə 8 onlayn-vebinar keçirilib. Məzmunca müxtəlif olan bu təbirlərdə ("Ulu Öndər Heydər Əliyevin respublikada apardığı siyasət və əldə olunan nəticələr", "COVID-19 pandemiyası dövründə gender bərabərliyinin tələblərinə riayət olunması", "Koronavirus pandemiyası dövründə HİK-lər tərəfindən gənc işçilər arasında maarifləndirmə prosesinin həyata keçirilməsi", "Pandemiya şəraitində qadınlara qarşı zorakılığın qarşısının alınması" və b.) iştirakçıların diqqəti kollektiv saziş və müqavilələrin bağlanması prosesində gender aspektlərinin gücləndirilməsinə, qadınların ailədəki roluna, həmkarlar ittifaqlarının iş yerlərində ayrı-seçkiliyə qarşı mübarizəsinə və digər məsələlərə yönəldilmişdir.**

Keçirilən bütün tədbirlərdə milli qanunvericiliyin formalaşması, gender bərabərliyi ilə bağlı BMT və BƏT-in əsas konvensiyaları, Dayanıqlı İnkişaf Məqsədlərinin gender amilləri, gender komissiyalarının fəaliyyətinin təşkili və təkmilləşdirilməsi barədə məlumat və izahatlar verilib. AHİK və GBQPM tərəfindən maarifləndirici materiallar hazırlanıb ("Həmkarlar ittifaqları sıralarına qoşul", "Ailə öhdəlikləri olan qadınlara zəmanətlər", "İşləyən gənc qadınların hüquqları və təminatları" adlı bukletlər və "Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və normativ-hüquqi aktlarından gender aspektlərinə dair çıxarışlar toplusu", "Gender bərabərliyi strategiyası") yayımlanıb.

**AHİK gənc qadın üzvlərinin öz potensiaallarını tam reallaşdırması məsələsini fəaliyyətinin prioritet istiqamətlərindən sayır. Həmkarlar ittifaqı üzvlərinin 18,9 faizi gənclərdir. Onların da yarıdan çoxu - 9,54 faizi gənc qadınlardır. Bu qadınların 6,18 faizi bütün səviyyəli rəhbər vəzifələrdə təmsil olunur. Sədr vəzifəsində işləyənlərin 32,7 faizi gənc qadınlardır. Pullu vəzifə tutanların sayı ötən il 5 faiz artaraq 25,9 faiz olmuşdur.**

İstedadlı və yaradıcı gənc qadınlar üzə çıxarılır, onlara geniş imkanlar yaradılır. Əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə edənlər fərqləndirilir. "İlin peşəkar gənci" fəxri adı təsis edilib. Məqsəd ayrı-ayrı sahələrdə fəaliyyət göstərən gənclər arasında müxtəlif sənət növlərinə, peşələrə və əmək fəaliyyətinə marağın artırılmasına, onların qüvvə və bacarıqlarının respublikamızın sosial-iqtisadi inkişafına səfərbər edilməsinə və həmkarlar ittifaqı üzvlüyünə motivasiyanın gücləndirilməsinə nail olmaqdır. Təkcə ötən il sahə HİRK-in təqdimatına əsasən, 53 nəfər gənc, o cümlədən 16 nəfər gənc qadın "İlin peşəkar gənci" fəxri adına layiq görülmüşlər.

**Həmkarlar itttifaqı idman təşkilatları əhalinin sağlamlığının möhkəmləndirilməsi sahəsində fəaliyyətlərini davam etdirir. Bədən tərbiyəsi və idmanla məşğul olanların istifadəsində respublikanın şəhər və rayonlarında 92 idman bazası və qurğu var. Hesabat ili ərzində həmkarlar ittifaqları idman təşkilatlarının 9 Uşaq və Gənclər İdman Məktəbinin 28 bölməsində 3041 gənc, o cümlədən 218 qız idmanın 13 növü ilə müntəzəm məşğul olub. Respublika və beynəlxalq yarışlarda yüksək nəticələr əldə edən perspektivli idmançılara hərtərəfli dəstək göstərilir.**

AHİK-in tabeliyində olan Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası həmkarlar ittifaqı işçiləri üçün gender siyasəti üzrə kurs və treninqlər təşkil edir. Təlim planına əsasən, 2018-ci ildə bu kurs və treninqlərdə 120 nəfər **(56 kişi və 64 qadın)**, 2019-cu ildə 113 nəfər **(75 kişi və 38 qadın)**, 2021-ci ildə 60 nəfər **(15 kişi və 45 qadın)** dinləyici bilik və bacarıqlarını artırıb. Məruzələrin və praktiki məşğələlərin keçirilməsinə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyinin Elmi - Tədqiqat, Mamalıq və Ginekologiya İnstitutu, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Konstitusiya Məhkəməsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) nümayəndələri və mütəxəssisləri cəlb olunublar.

**Göründüyü kimi, həmkarlar ittifaqı gender bərabərliyinin təmin olunması, ittifaqımızın qadın üzvlərinin potensialının tam açılması istiqamətində müəyyən işlər görməyi, uğurlar qazanmağı bacarmışdır. Lakin əldə olunanlarla kifayətlənmək həmkarlar ittifaqının xarakterinə yaddır. Bu sahədə fəaliyyətimizi daha da gücləndirməkdə qərarlıyıq və buna təşkilatımızın imkanları da yetərincədir.**

**Namiq HÜSEYNOV,**
**AHİK-in Zəhmətkeşlərin mədəni-məişət problemləri üzrə analitik tədqiqat şöbəsinin müdiri**

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

WWW.ULFET-AZ.COM

Son səhifə

CÜMƏ AXŞAMI, 07 APREL 2022-ci il / № 12 (1279)




BEYNƏLXALQ

# Tam şəffaflıq və mövcud məlumatların mühafizəsi gözlənilməlidir




**Avropa Komissiyası Avropa sağlamlıq məlumat məkanı ilə bağlı təklifini təqdim etməyə hazırlaşarkən, Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyi (EPSU) səhiyyənin nəticələrini yaxşılaşdıran mərkəzləşdirilmiş çərçivəyə ehtiyacı vurğulayır.**

Avropada səhiyyə və qayğı işçilərinin səsi olaraq, EPSU bu struktur üçün insan hüquqlarına riayət olunmasına əsaslanan yanaşmanın vacib olduğuna qətiyyətlə inanır. Qeyd olunur ki, biz kommersiya maraqlarına (mənfəət axtaran şirkətlərdən) sağlamlıq məlumatlarının paylaşma məkanında hər hansı bir rol verən yanaşmaya etibar edə bilmərik. Sağlamlıq əmtəə deyil və kommersiya maraqlarının bizim ictimai və özəl səhiyyə məsələlərində yeri yoxdur.

**Komissiyanın fikrincə, təklif belə olacaq:**

-xəstə məlumatlarının təhlükəsiz mübadiləsini və onların sağlamlıq məlumatları üzərində vətəndaş nəzarətini təşviq etmək;

-müalicələrə, dərmanlara, tibbi cihazlara və nəticələrə dair tədqiqatları dəstəkləmək;

-sağlam idarəetmə strukturu və məlumatların mühafizəsi qaydalarına riayət etməklə tədqiqat, siyasətin inkişafı və tənzimlənməsi üçün sağlamlıq məlumatlarına çıxışı və istifadəni təşviq etmək;

-rəqəmsal sağlamlıq xidmətləri üçün dəstək;

-səhiyyədə süni intellektin təhlükəsizliyi və məsuliyyətini aydınlaşdırmaq.

**EPSU xəstələrin məlumatlarını idarə etmək hüquqlarının qorunmasının vacibliyini vurğulayır. Səhv düşünülmüş Avropa sağlamlıq məlumat məkanı məlumatların məxfiliyinin pozulmasına, sağlamlığın qeyri-insaniləşdirilməsinə, məhdud rəqəmsal savadlılıq səbəbindən səhiyyə xidmətinə qeyri-bərabər çıxışa və paylaşılan məlumatlardan özəl şirkətlərin qazancının artmasına səbəb ola bilər. Bu mənfi nəticələr nəzərə alınmalıdır.**

Bundan əlavə, təklif süni intellektdən istifadənin xəstələr arasında daha çox ayrı-seçkiliyə və qeyri-bərabər rəftara səbəb olmamasını təmin etməlidir. Səhiyyə işçiləri, eləcə də xəstələr tibbi məlumatlar və süni intellekt haqqında biliklərini təkmilləşdirmək üçün müvafiq təlim keçməlidirlər ki, onlardan inamla istifadə edə bilsinlər.

**Nəhayət, Avropa sağlamlıq məlumat məkanı tam şəffaflıqla və mövcud məlumatların mühafizəsi qaydalarına uyğun olaraq hazırlanmalıdır. Səhiyyənin ictimai sərvət olduğunu və ona bərabər çıxışın əsas hüquq olduğunu nəzərə alaraq, bu prinsipə riayət etmək və səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsinə töhfə vermək vacibdir. Səhiyyə məlumatlarının ictimai sərvət kimi görünməsini və mənfəət üçün əmtəələşdirilməməsini təmin etmək məqsədilə ictimai sektorun fəal iştirakı lazımdır.**



# *"Sudan səmərəli istifadənin metodları" layihəsinin icrasına başlanıb*

**"Azərsu" ASC-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, "Azərsu", Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyinin tərəfdaşlığı ilə "Sudan səmərəli istifadənin metodları" layihəsinin icrasına başlanıb.**

Layihənin açılış mərasimində "Azərsu" ASC-nin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun metodisti Pərvanə Xıdırova Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin kiçik qrant müsabiqəsinin nəticələrinə əsasən, "Sudan İstifadə sahəsində Mütəxəssislər" İctimai Birliyinin "Sudan səmərəli istifadənin metodları" layihəsinin də qalib seçildiyini qeyd edib.

Layihənin məqsədi gənclərə sudan səmərəli istifadə metodlarını aşılamaq, onların su haqqında elmi biliklərinin artırılmasına töhfə vermək, könüllülərin fəaliyyətinə dəstək göstərmək, eyni zamanda, cəmiyyətin diqqətini bu sahəyə yönəltməkdən ibarətdir. Bu məqsədlə bir sıra ali təhsil müəssisələrinin tələbələri layihəyə cəlb edilib. Layihə çərçivəsində tələbələr üçün su ehtiyatlarının davamlı idarə olunması və səmərəli istifadəsi, tullantı sularının emalı mövzularında təlimlər keçiriləcək.

**"Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun direktoru Vüqar Mirzəyev, "Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllı və "Sudan İstifadə sahəsində Mütəxəssislər" İctimai Birliyinin icraçı direktoru Rəşail İsmayılov dünyada aktual olan su problemlərindən danışıb, sudan səmərəli istifadənin zəruriliyini diqqətə çatdırıblar.**

Sonra "Azərsu" ASC-nin Coğrafi informasiya sistemləri şöbəsinin rəisi Abbas Abbaszadə "Su təsərrüfatının müasir CİS texnologiyalarla idarə olunması", "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun böyük elmi işçisi Məmməd Hüseynzadə "Su təchizatı və tullantı sularının kənarlaşdırılması sistemləri" mövzusunda təlimlər keçiblər.

Daha sonra su mövzusunda çəkilmiş "25 litr" adlı sənədli film nümayiş etdirilib və filmlə bağlı geniş fikir mübadiləsi aparılıb.

**Layihə müddətində tələbələrin "Azərsu" ASC-nin Təlim və İnnovasiyalar Mərkəzi, "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu, Mərkəzi Laboratoriya, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinə ekskursiyaları təşkil olunacaq.**

# Hüquq məsləhətxanası

**İstehsalatda bədbəxt hadisə nəticəsində I dərəcə əlil olmuşam. Ona görə pensiya alıram və işləmirəm. Bu il pensiya yaşına çatıram. Bilmək istəyirəm, mənə yaşa görə pensiya təyin olunanda işləmədiyim bu müddət nəzərə alınacaqmı?**

**Məmməd HƏSƏNOV, Sumqayıt şəhəri.**

- Əmək pensiyası sosial sığorta stajına əsasən təyin edilir. "Əmək pensiyaları haqqında" qanunun 21.1. maddəsinə əsasən qanunvericiliklə müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi şərtilə mülkiyyət formasından, əmək fəaliyyətinin xarakterindən və müddətindən asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda əmək müqaviləsi əsasında işləyənlərin, hərbi qulluqçuların, eləcə də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, vəzifəyə seçilmiş və ya təyin edilmiş şəxslərin iş, hərbi xidmət və ya digər fəaliyyət müddətləri sığorta stajına daxil edilir.

Amma sığorta stajına bu yuxarıda qeyd olunan müddətlərdən əlavə, başqa müddətlər də daxil edilir. Bunlardan biri də yuxarıda adıçəkilən Qanunun 21.2.6. maddəsində təsbit edilmiş "istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəliyi nəticəsində işləməyən I və II dərəcə əlilliyi olan şəxslərin yaşa görə əmək pensiyasının təyin edilməsi üçün yaş həddinə çatanadək pensiyada olduqları müddət"dir. Qanunun bu tələbinə görə, Sizə pensiya təyin olunanda əlillik dövründə işləmədiyiniz müddət nəzərə alınacaqdır.

**Yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsindən imtina mümkündürmü?**

**Cavid SƏFƏROV, Xırdalan şəhəri.**

- Mənzil Məcəlləsinə əsasən, yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsindən imtinaya aşağıdakı hallarda yol verilir:

- sahənin keçirilməsi haqqında ərizə, keçirilən sahə üzərinə hüquqları müəyyənləşdirən sənədlər, keçirilən sahənin texniki təsviri göstərilməklə planı (keçirilən sahə yaşayış sahəsi olduqda onun texniki pasportu), keçirilən sahənin yerləşdiyi binanın mərtəbəli planı təqdim edilmədikdə;

- sahənin keçirilməsi şərtlərinə riayət edilmədikdə;

- yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması layihəsi tikinti norma və qaydalarına uyğun olmadıqda.

Sahənin keçirilməsindən imtina haqqında qərar qeyd edilən pozuntulara mütləq istinad edilməklə və həmin pozuntuların mahiyyətinin nədən ibarət olduğunu göstərməklə əsaslandırılmalıdır.

Onu da qeyd etmək lazımdır ki,sahənin keçirilməsindən imtina haqqında qərar onun qəbul edildiyi gündən üç iş günü müddətində ərizəçiyə təqdim edilir və ya göndərilir və həmin qərardan ərizəçi tərəfindən məhkəmə qaydasında şikayət verilə bilər.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

İdman

# *Elmar Qasımov bürünc medal qazanıb*

**Antalyada keçirilən "Böyük dəbilqə" turnirində cüdoçumuz Elmar Qasımov bürünc medal qazanıb.**



**100 kiloqram çəki dərəcəsində mübarizə aparan "Atilla" İdman Klubunun yetirməsi bürünc medal uğrunda qarşılaşmada Kyle Reyesi (Kanada) məğlub edib.**

**Allah rəhmət eləsin!**

**Mədəniyyət İşçiləri Hİ Goranboy Rayon Komitəsinin sədri Nizami Abdullayev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı**

**RUHULLA müəllimin**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**




# *"Zenit" İdman Cəmiyyətinin daha bir uğuru*

**"Zenit" İdman Cəmiyyətinin daha bir yetirməsi Avropa çempionatında medal qazanıb. 74 kq. çəki dərəcəsində mübarizə aparan sərbəst güləşçimiz Turan Bayramov Macarıstanın paytaxtı Budapeştdə keçirilən Avropa çempionatında üçüncü yeri tutub.**

Turan səkkizdəbir finalda bolqarıstanlı Ali Umarpaşayevə qalib gəlib. Dörddəbir finalda estoniyalı Aymar Andruseni də məyus edib. Yarımfinalda son Avropa çempionu və dünya ikincisi Taymuraz Salkazanova (Slovakiya) məğlub olub. T. Bayramov bürünc medal uğrunda rumıniyalı Zurab Kaprayevlə güləşib. Rəqibinə 2:1 hesabı ilə qalib gələn Turan Avropa çempionatının bürünc medalına sahib çıxıb.

Xatırladaq ki, yarışda iştirak edən yığmamızın 10 üzvündən 7-si fəxri kürsüyə qalxıb. Maqomedxan Maqomedov (97 kq.) qızıl, Əliabbas Rzazadə (57 kq.), Hacı Əliyev (65 kq.), Əşrəf Aşırov (79 kq.), Abubakr Abakarov (86 kq.) gümüş, Turan Bayramov (74 kq.) və Osman Nurmaqomedov (92 kq.) isə bürünc medal qazanıblar.

Yekunda 159 xal toplayan millimiz komanda hesabında Avropa çempionu olub.

**Qeyd edək ki, bu, sərbəst güləşçilərin son 1 ayda ikinci uğurudur. Martın 7-13-də Bolqarıstanın Plovdiv şəhərində baş tutan U-23 Avropa çempionatında da müvafiq millimiz komanda hesabında birinci yeri tutmuşdu.**


**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 968
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət